# BEYNƏLXALQ SİMPOZİUMUN PROQRAMI

**16 iyun 2023**

| | |
|---|---|
| **8:30** | ADPU-nun Quba filialında qonaqların qarşılanması |
| **8:50** | Ulu öndər Heydər Əliyevin Quba şəhərindəki abidəsinin və Azərbaycan-Türkiyə qardaşlıq parkının ziyarət edilməsi |
| | **PLENAR BÖLMƏ**<br>**Simpoziumun açılışı** |
| | **Moderator:**<br>Yusif Alıyev – ADPU-nun Quba filialının direktoru, fizika elmləri doktoru, dosent |
| **9:10** | Türkiyə Cümhuriyyətinin və Azərbaycan<br><br>Ulu öndər Heydər Əliyevin, Qazi Mustafa Kamal Atatürkün və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi |
| **9:20-9:35** | Ziyəddin Əliyev – Quba rayon İcra Hakimiyyətinin başçısı |
| **9:35-9:50** | Cahit Bağcı – Türkiyə Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və səlahiyyətli səfiri |
| **9:50-10:05** | Cəfər Cəfərov – Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor |
| **10:05-10:25** | Hamlet İsaxanlı – Xəzər Universitetinin təsisçisi, professor |

| | |
|---|---|
| **10:25-10:35** | Mehmet Ölmez – İstanbul Universitetinin müəllimi, professor |
| **10:35-10:50** | Rəşad Cabirli – MÜSİAD Azərbaycanın başqanı |
| **10:50-11:00** | Yusif Alıyev – ADPU-nun Quba filialının direktoru, fizika elmləri doktoru, dosent |
| **13:00-14:00**<br>**NAHAR FASİLƏSİ** | |

| PANEL BÖLMƏLƏR | |
|---|---|
| **I Bölmə**<br>**Moderatorlar:**<br>***Dr. Telman Nüsrətoğlu***<br>**Xəzər Universiteti Tarix və Arxeologiya Departamentinin Müdiri**<br><br>***Dr. Pərvanə Rzayeva***<br>**ADPU-nun Quba Filialının Keyfiyyətin Təminatı Şöbəsinin Müdiri** | |
| **14:05-14:20** | ***Professor Asəf Zamanov,***<br>Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elm və innovasiyalar üzrə prorektoru<br>**“Heydər Əliyev və Azərbaycan elmi”** |
| **14:20-14:35** | ***Dr. Araz Aslanlı,***<br>Gömrük Akademiyasının prorektoru<br>**“Azərbaycan – Türkiyə strateji münasibətləri: 4 iyun Batum müqaviləsindən – 15iyun Şuşa bəyannaməsinə”** |
| **14:35-14:50** | ***Dr. Rüxsarə Quliyeva,***<br>Xəzər Universiteti, Tarix və arxeologiya departamentinin müəllimi<br>**“II Qarabağ müharibəsi: Azərbaycan-** |

| | |
|---|---|
| | **Türkiyə münasibətlərində mühüm kəsişmənöqtəsi”** |
| **14:50-15:05** | ***Dr. Pərvanə Rzayeva,***<br><br>ADPU-nun Quba Filialının Keyfiyyətin təminatı şöbəsinin müdiri<br><br>Tarix, pedaqogika vəsosial elmlər kafedrasının baş müəllimi<br><br>**“Türk dünyasında baş vermiş mədəni hadisələrə “Şərq qadını” jurnalının təsiri”** |
| **15:05-15:20** | ***Dr. Söhrab Mustafayev,***<br><br>Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi<br><br>**“Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründəAzərbaycan ilə Türkiyənin iqtisadi və ticarət əlaqələri”** |
| **15:30-16:00** | Simpoziumun bağlanışı, məruzələrin qiymətləndirilməsi |
| **Coffee Break** | |

| | |
|---|---|
| **II Bölmə**<br><br>**Moderatorlar:**<br><br>***Professor Museyib İlyasov***<br>**ADPU-nun Məktəbəqədər Təhsilin Pedaqogikası Kafedrasının Müdiri**<br><br>***Dosent Elza Səmədli***<br>**Xəzər Universiteti, Humanitar, Təhsil və Sosial Elmlər Fakültəsinin Dekanı** | |
| **14:05-14:20** | ***Professor Museyib İlyasov,***<br><br>Azərbaycan Dövlət Pedaqoji Universiteti Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiri<br><br>**“Heydər Əliyev və gənclərin milli-mənəvi tərbiyə məsələləri”** |
| **14:20-14:35** | ***Dosent Elza Səmədli,***<br><br>Xəzər Universiteti Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı<br><br>**“İki dövlət bir millət şüurunun formalaşmasının tarixi və mədəni kökləri”** |
| **14:35-14:50** | ***Dosent Elnur Nəsirov,***<br><br>Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının Tarix, pedaqogika və sosial elmlər kafedrasının müdiri<br><br>**“Anadolu’da Türk-İslam medeniyyetinin oluşmasında Azerbaycan’ın rolü”** |

| | |
|---|---|
| 14:50-15:05 | ***Dr. Orxan Vəliyev,*** <br><br> Xəzər Universiteti Siyasi elmlər və beynəlxalq münasibətlər departamentinin müdiri <br><br> **“Azərbaycan - Türkiyə münasibətlərinin Azərbaycan dövlətçiliyinin inşasına təsiri”** |
| 15:05-15:20 | ***Dr. Təhminə Əliyeva,*** <br><br> ADPU-nun Quba filialının Tarix, pedaqogika və sosial elmlər kafedrasının baş müəllimi <br><br> **“Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan-Türkiyəmünasibətlərinin güclənməsində diplomatiyanın rolu”** |
| 15:20-15:35 | ***Dr. Novruz Kərimov,*** <br><br> Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının Tarix, pedaqogika və sosial elmlər kafedrasının baş müəllimi <br><br> **“Ulu Öndər Heydər Əliyev siyasətində qardaş Türkiyə əməkdaşlığı”** |
| 15:35-16:00 | Simpoziumun bağlanışı, məruzələrin qiymətləndirilməsi |
| **Coffee Break** | |

| **III Bölmə** | |
|---|---|
| **Moderatorlar:**<br>***Professor Fərrux Rüstəmov***<br>**ADPU-nun İbtidai Təhsilin Pedaqogikası Kafedrasının Müdiri**<br><br>***Dr. Cavid Vəliyev***<br>**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin Şöbə Müdiri** | |
| **14:05-14:20** | ***Professor Fərrux Rüstəmov,***<br>Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası kafedrasınınmüdiri<br>**“Azərbaycan - Türkiyə elmi-pedaqoji əlaqələri”** |
| **14:20-14:35** | ***Dr. Telman Nüsrətoğlu***,<br>Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri<br>**“Qarabağ zəfəri kontekstində Azərbaycan - Türkiyə hərbi əmək-daşlığı müştərək türk gücünün for-malaşmasında ilham qaynağı kimi ”** |
| **14:35-14:50** | ***Dr. Bayram Quliyev,***<br>Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi<br>**“Ümummilli Lider Heydər Əliyevin hakimiyyət illərində Azərbaycan – Türkiyəmədəni əlaqələrinin əsas istiqamətləri”** |
| **14:50-15:05** | ***Dr. Cavid Vəliyev,***<br>Beynəlxalq münasibətlərin təhlili mərkəzinin şöbə müdiri<br>**“Türkiyə - Azərbaycan münasibətlə-rində Heydər Əliyev mirası”** |

| | |
|---|---|
| **15:05-15:20** | ***Dr. Mürvət Əliyev,***<br>ADPU-nun Quba filialının direktor köməkçisi<br>**“I Dünya müharibəsində və ondan sonrakı dövrdə Osmanlı dövlətinin Qafqazsiyasətində Azərbaycan məsələsi”** |
| **15:20-15:40** | Simpoziumun bağlanışı, məruzələrin qiymətləndirilməsi |
| | **Coffee Break** |

| **17 iyun 2023** | |
|---|---|
| **08:00 – 09:00** | Qəçrəş meşəliyində səhər yeməyi |
| **09:10 – 10:20** | Quba Soyqırımı Memorial Kompleksinin ziyarət edilməsi |
| **10:30 – 12:00** | Quba rayon Susay kəndində Qafqaz İslam ordusu əsgərinin məzarının ziyarət edilməsi |
| **12:00 – 13:00** | Azərbaycan tolerantlığı: Multikulturalizm nümunəsi olan Qırmızı qəsəbə ilə tanışlıq və sinaqoqlara baxış |
| **13:00 -14:00** | Nahar fasiləsi |
| **14:00** | Qonaqların yola salınması |

# *Tezislər*

## *HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ELMİ*

***Prof. Dr. Asəf ZAMANOV***

***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elm və innovasiyalar üzrə prorektoru***

***prorektor_science@adpu.edu.az***

Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Ümummilli lider Heydər Əliyev elmin strateji əhəmiyyətini düzgün qiymətləndirərək elm və texnologiya sahəsinin inkişafına xüsusi diqqət yetirmişdir. Ulu öndərin elmin inkişafı istiqamətində yorulmaz fəaliyyəti nəticəsində Azərbaycanda riyaziyyat, kibernetika, fizika, kosmik tədqiqatlar, kimya, biologiya, tibb, geologiya, həmçinin humanitar elmlər sahəsində bir sıra mühüm nailiyyətlərə imza atılmışdır. Ali təhsil müəssisələrində təhsil alan istedadlı gənclərin elmə, elmi və elmi-pedaqoji fəaliyyətə cəlb edilməsi üçün mühit, doktorantların (aspirantların) elmi tədqiqatlar aparması məqsədilə Azərbaycan Elmlər Akademiyası institutlarında, elm-sənaye birliklərində iş yerləri yaradıldı. Elmlər namizədləri və elmlər doktorlarının sayı 1982-ci ildə 1969-cu ilə nisbətən 1.7 dəfə artdı. Ən yeni elm sahələri üzrə elmlər doktorları hazırlandı ki, bu da həmin sahələrdə elmi məktəblərin formalaşmasının əsası oldu. SSRİ EA-nın prezidenti akademik M. Keldışın 1972-ci ildə Azərbaycana səfəri və respublika rəhbəri Heydər Əliyevlə görüşü Azərbaycan EA-nın inkişafına əhəmiyyətli təsir göstərdi. Həmin illərdə Azərbaycanda yeni ali məktəblərin, həmçinin fakültələrin və elmi-tədqiqat institutlarının yaradılması, hər il 1000-dən çox gəncin təhsil

almaq üçün SSRİ-nin aparıcı ali məktəblərinə göndərilməsi respublikamızda elmin sürətli inkişafı ilə nəticələndi.

Müstəqillik dövründə də bu siyasət uğurla davam etdirildi. Ali məktəblərin şəbəkəsinin genişləndirilməsi, həmçinin özəl ali məktəblərin yaradılması ölkəmizdə intellektual potensialın inkişafına müsbət təsirini göstərdi. Azərbaycanın kosmik ölkələr sırasına daxil olması, regionda söz sahibi olan ölkəyə çevrilməsi, istedadlı gənclərin dövlət proqramları əsasında dünyanın aparıcı elm və təhsil mərkəzlərində təhsil alması, elmi-tədqiqat işləri aparması həmin siyasətin bu gün də ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin göstəricisidir.

# *“İKİ DÖVLƏT BİR MİLLƏT” ŞÜURUNUN FORMALAŞMASININ TARİXİ VƏ MƏDƏNİ KÖKLƏRİ*

***Dos. Dr. Elza SƏMƏDLİ***

***Xəzər Universiteti Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı***

***esemedova@khazar.org***

Ortaq tarixə və sosial-mədəni bağlara sahib olan toplumların qarşılıqlı əlaqəsi, bir-birinin adət ənənənələrindən, həyat tərzindən və rutinlərindən, eyni zamanda bilik, sənət və ədəbiyyat kimi ortaq maddi- mənəvi dəyərlərindən yararlanaraq bir birlərini tamamlamaları, zənginləşdirmələri türk xalqları üçün tarixin döngüsü içində təkrarlanan bir proses olmuşdur.

Hunlardan bəri şərqdən qərbə, şimaldan cənuba böyük bir coğrafiyada yayılan türk xalqları ortaq tarix şüuruna sahib olmağı bacarmışdırlar. Bozqır mədəniyyətinin bir parçası olan at və dəmir kültürü, iqtisadi fəaliyyətlər, dövlət quruculuğu, ordu təşkilatı, dini liberalizm, ədalət və düzənin törə ilə nizamlanması, universal ülgüçülük (ümumbəşəri idealizm) kimi ortaq dəyərlər türk xalqları arasında formalaşmışdır.

VI-VIII əsrlərə aid əsərlərdəki sistemli əlifba, dil və üslub ənənəsi, orta əsrlərin elmi, fəlsəfəsi, İslami dəyərləri ilə yoğurularaq sonrakı dövrlərdə Avropa elminin, fəlsəfəsinin və mədəniyyətinin təməllərini şəkilləndirmişdir. Orta əsərlərin memarlıq abidələri, elmi, fəlsəfəsi və ədəbiyyatı ilə Yusuf Xas Hacib, İbn Rüşt, Mövlana Rumi, Fərabi, İmam Qəzzali, Nizami, Əlişir Nəvayi, Füzuli kimi Türk- İslam alim, filosof, şair və dövlət adamlarının əsərləri sadəcə şərqdə deyil eyni zamanda qərbdə də tərcümə və təfsir yolu ilə öyrənilmişdir. Bütün bunlar türk xalqlarında ortaq tarix və mədəniyyət

şüurunun formalaşmasında bütünləşdirici rol oynamışdır.

XVIII -XX əsrlərdə Türk-İslam dünyasındakı tarixi hadisələr fonunda xarici qüvvələrin də təsiri ilə bir çözülmə, parçalanma yaşandığı müşahidə olunsa da qərbin elm və texnologiya sahəsindəki uğurlu inkişafı və şərq cəmiyyətinin bu inkişafdan geri qalması həm Türkiyə həm də Azərbaycan ziyalılarını ciddi şəkildə narahat etmişdir.

Tarixi və mədəni kökləri olan ortaq türk mədəniyyəti şüuru ilə yenə də dövrün İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Ziya Gökalp, Əhməd Ağaoğlu, Sadri Maqsudu Arsal, Fuad Köprülü kimi mütəfəkkir ziyalıları ortaq türk dünyası, Turan şüuru ilə birləşmiş, "Türkləşmək İslamlaşmaq və Müasirləşmək" şüarıyla sadəcə Türkiyə və Azərbaycan xalqları arasında deyil, bütün türk xalqları arasında iqtisadi, sosial, mədəni əlaqələrə əsaslana milli kimliyi inşa etmişlər. Bu ideologiyadan bəhrələnən Azərbaycan ziyalıları və ictimai xadimləri başqa Məmməd Əmin Rəsulzadə və silahdaşları olmaqla türk-islam dünyasına "bir dəfə yüksələn bayraq bir daha düşməz" ideyası ilə ilk dəfə müstəqil, demokratik cümhuriyyət ənənəsini gətirmiş, Mustafa Kamal Atatürk Türkiyədə "bir dəfə yüksələn müstəqillik və demokratiya bayrağını" düşməməyə qoymamış və bu ideologiyanı davam etdirmişdir.

XX əsrin sonlarında Elçibəy və digər Azərbaycan ziyalı və ictimai xadimlərinin fəaliyyətiylə yenidən alovlanan Azərbaycanın xalq hərəkatı ilə müstəqilliyini əldə edən Azərbaycan respublikası ümummilli lider Heydər Əliyevin öndərliyində və uğurlu siyasəti nəticəsində bu sonsuz yolun təməlləri daha da möhkəmlənmiş və "iki dövlət bir millət"

ifadəsi tarixi və mədəni kökləri olan bir zehniyyətin təzahürü olaraq yenidən ortaya çıxmışdır.

XIX əsrdə həm Azərbaycan həm Türkiyə dövlətinin uğurlu siyasəti nəticəsində ümummilli lider Heydər Əliyev tərəfindən səsləndirilən "iki dövlət bir millət" ifadəsi türk dünyasının ortaq şüarına dönüşərək, sadəcə iki dövləti deyil digər türk dövlətlərini də bu şüar ətrafında birləşdirərək XIX əsrin bir "türk əsri" olmasını təmin etmişdir.

# *AZƏRBAYCAN-TÜRKİYƏ ELMİ-PEDAQOJİ ƏLAQƏLƏRİ*

***Prof. Dr. Fərrux RÜSTƏMOV***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri***
***farrukhrustamov@gmail.com***

Azərbaycan və Türkiyə xalqları arasında yaranan elmi-pedaqoji əlaqələr ayrı-ayrı şəxslərin, maarifçilərin, təhsil işçilərinin arzusu ilə yaranmamış, tarixi inkişaf prosesinin qanunauyğun nəticəsi kimi meydana gəlmişdir. Azərbaycan və Türkiyə arasında iqtisadi, siyasi, elmi-mədəni, təhsil əlaqələri ictimai-siyasi şəraitdən asılı olmuşdur. XX əsrin əvvəllərində (30-cu illərə kimi) bu əlaqələr yüksələn xətlə inkişaf etsə də, sovet hakimiyyəti illərində (30-80-ci illərdə) bu əlaqələr kəsilmişdi. Azərbaycan müstəqillik qazandıqdan sonra bu əlaqələr yenidən bərpa olundu, keyfiyyətcə yeni məzmun qazandı. Qısa bir vaxtda siyasi münasibətlərin normallaşdırılması fonunda Azərbaycan-Türkiyə elmi-pedaqoji əlaqələri yarandı və inkişaf etdi. Bu əlaqələr təhsilin əsasən, ümumi təhsil, ali təhsil və doktorantura pillələrini əhatə etdi. Tarixi köklərə, eyni dil qrupu, ənənə və dəyərləri ilə bir-birinə yaxın olan türkdilli xalqlar arasında iqtisadi, siyasi, elmi-mədəni əlaqələr onlar arasında vahid ideya birliyi və həmrəyliyin yaranmasını şərtləndirir. Azərbaycan və Türkiyə xalqları arasında yaranan elmi-pedaqoji əlaqələr də sadəcə olaraq ayrı-ayrı şəxsiyyətlərin, maarifçilərin, təhsil işçilərinin arzusu və istəyi ilə yaranmamış, çoxcəhətli tarixi inkişaf prosesinin qanunauyğun nəticəsi kimi meydana gəlmişdir. Tarix boyu elə bir xalq olmamışdır ki, onun mədəniyyəti, ədəbiyyatı, təhsili və pedaqoji fikri daim ünsiyyətdə olduğu xalqların mənəvi irsindən təcrid olunmuş şəkildə inkişaf etsin.

## *HEYDƏR ƏLİYEV VƏ GƏNCLƏRİN MİLLİ-MƏNƏVİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ*

***Prof. Dr. Müseyib İLYASOV***

***Azərbaycan Dövlət Pedaqoji Universiteti Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiri***

***museyibilyas@gmail.com***

Xalqımızın ümummilli lideri, böyük öndər Heydər Əliyevin milli-mənəvi tərbiyə, milli ləyaqət hissi haqqında söylədiyi fikirlər, gənclərimizə verdiyi tövsiyələr müasir Azərbaycan gənclərinin bir şəxsiyyət və vətəndaş kimi formalaşmalarında qiymətli xəzinə, dəyərli mənbələrdir. Ulu öndər gənc nəslə, onların tərbiyəsinə, təhsilinə, özlərinin milli mənsubiyyətini yüksək tutmağa, ölkəmiz üçün layiqli varislər olmalarına həmişə böyük diqqət yetirmiş, onlara lazımi köməklik göstərmiş, özü şəxsi nümunə olmuş və gənclərə özünün müdrik tövsiyələrini, məsləhətlərini vermişdir.

"İnsan cəmiyyətində ən yüksək yerdə mənəviyyat durur"- deyən böyük öndər mənəvi tərbiyəni şəxsiyyətin formalaşmasında əsas amil hesab etmiş, mənəvi tərbiyəni təməl mədəniyyəti kimi şəxsiyyətin kimliyini, necəliyini müəyyənləşdirən başlıca meyar kimi dəyərləndirmişdir. "Mənəvi tərbiyəni daim artırmaq lazımdır və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır"- tövsiyəsini verən böyük öndər mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz – deməklə mənəviyyatın insanlığın malik olduğu bütün keyfiyyətlərin fövqündə dayandığını qeyd etmişdir. "Nə qədər böyük alim olursansa ol, nə qədər böyük mütəxəssis olursansa ol, nə qədər böyük dövlət xadimi olursansa ol, əgər mənəviyyatca şikəstsənsə, sənin heç bir qiymətin yoxdur"- deyərək mənəviyyatı insan-

lığın ən yüksək sərvəti kimi qiymətləndirmişdir.

Ulu öndər özünün çıxışlarında gənclərin milli-mənəvi tərbiyə və milli ləyaqət hissinin çoxfunksiyalı və çoxistiqamətli konsepsiyasını vermişdir. Bu konsepsiyada milli-mənəvi tərbiyə, milli ləyaqət hissi heç də bir ifadə, bir məzmun və bir istiqamətlə məhdudlaşmır. Bu, bütöv və bütövləşmiş şəxsiyyətin mahiyyətini özündə əks etdirən və bir-biri ilə bağlı olan mənəviyyat kompleksini özündə birləşdirir. Milli mənəviyyat, milli ləyaqət məhz onların birliyi zəminində formalaşır və inkişaf edir. Bir sap üzərində düzülən və bir-birini tamamlayan inciləri xatırladır. Bu kompleksə daxil olan komponentləri aşağıdakı kimi xarakterizə etmək olar:

Mükəmməl təhsilli olmaq, dərin biliyə yiyələnmək; Fəal həyat mövqeyinə malik olmaq; Mənəvi cəhətdən saf olmaq; Vətəni sevmək, vətənpərvər olmaq; Azərbaycançılıq məfkurəsinə yiyələnmək; Tariximizi bilmək və onunla fəxr etmək; Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilmək və ona yiyələnmək; Milli mənsubiyyəti ilə fəxr edə bilmək; Vətəndaşlıq keyfiyyətinə malik olmaq; Azərbaycan dilini sevmək və ona mükəmməl yiyələnmək; Dövlət müstəqilliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi.

Böyük öndər Azərbaycan gəncliyinə həmişə nikbin nəzərlərlə baxmış, bugünkü Azərbaycan cənclərinin gələcəkdə ölkəmizi idarəedənlər olacağına, onların gələcəyinə inanmı olduğunu ifadə etmiş və onların cəmiyyət qarşısında mühüm vəzifələr daşıdıqlarını da qeyd etmişdir. Azərbaycan gənclərinin Birinci forumunda etdiyi məruzəsində H.Əliyev gənclərə xitabən demişdir: “Hər bir Azərbaycan gənci cəmiyyətdə, Vətəndə, ölkədə öz vəzifələrini layiqincə yerinə yetirməyə çalışmalıdır.

Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir."

Heydər Əliyevin gənclərimizə verdiyi dəyərlər, onların qarşısına qoyduğu vəzifələr və onlara etdiyi tövsiyələr özünün mahiyyətinə görə millliliklə bəşəriliyi özündə birləşdirən bir xətt üzrə inkişaf edir. Bunlar ulu öndərin gənclərimizi təhsilli, mənəviyyatlı, ləyaqətli, vətənpərvər, yüksək amallar uğrunda mübariz və s. dəyərlərə yiyələnmiş əsl vətəndaşlar kimi görmək arzusundan qaynaqlanaraq Heydər Əliyev dühasının əsl təntənəsi kimi bu gün də dəyərlidir, yaşayır və yaşayacaqdır.

# *QARABAĞ ZƏFƏRİ KONTEKSTİNDƏ AZƏRBAYCAN-TÜRKİYƏ HƏRBİ ƏMƏKDAŞLIĞI MÜŞTƏRƏK TÜRK GÜCÜNÜN FORMALAŞMASINDA İLHAM QAYNAĞI KİMİ*

***Dr. Telman NÜSRƏTOĞLU***

***Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri***

***telman.guliyev@khazar.org***

Cənubi Qafqazdakı geosiyasi mənzərənin köklü şəkildə dəyişməsinə səbəb olan 44 günlük Qarabağ müharibəsi, bu müharibə zamanı Azərbaycan Ordusunun qarşısında duran ən çətin və həlledici vəzifə olan dağ silsilələri və meşələrlə əhatə olunmuş Şuşa və Laçının işğaldan azad edilməsi bütün yönləriylə Türk dünyası üçün ilham qaynağı olmuşdur. Şuşanın azad edilməsi Erməni silahlı qüvvələrinin dirəncinin tamamən qırılması baxımından da olduqca kritik bir hədəf idi. Strateji önəmi ilə bərabər mürəkkəb coğrafi relyefi, dağ şəraitində təbii istehkamların çoxluğu, müdafiə olunmağın hücum etməkdən daha asan olması səbəbiylə Ermənistan bütün hərbi gücünü Laçın və Şuşanı əldə tutmaq üçün səfərbər etmişdi. Ermənistan müharibəni zamana yayaraq, Azərbaycan ordusunu yoraraq, Erməni yanlısı beynəlxalq dairələri "məzlum" millət təbliğatıyla səfərbər edərək diplomatik danışıqlarda Bakıyla daha əlverişli şərtlərdə anlaşma imzalamağı arzulayırdı. Ancaq elə Erməni tərəfinin özünün o günlər verdiyi məlumatlardan Laçın və Şuşa istiqamətində Azərbaycan ordusunun irəliləyişini dayandıra bilmədikləri anlaşılmışdı. Hələ dağlıq ərazidə hərbi texnikanın manevr qabiliyyətinin məhdudluğu, minimum insan itkisiylə hədəflənən mövqeləri ələ keçirmək üçün Azərbaycan ordusunun

səbirli hərəkət etməsi, Erməni əsgərlərin Laçın dəhliziylə Ermənistana qaçışına da şərait yaradılması kimi amillər də ortada idi. İşğalçı rejim təmsilçilərinin açıqlamalarından Şuşanın onlar üçün necə həyati önəmdə olduğu aydın görünürdü. Separatçı rejimin müşaviri David Babayan Fransanın "Le Monde" qəzetinə verdiyi müsahibəsində Şuşa uğrunda ağır döyüşlərin getdiyini etiraf etmiş, Şuşa əldən gedərsə Xankəndini də saxlamağın mümkünsüzlüyünü, ondan sonra yeganə yolun dağlara, meşələrə çəkilmək olduğunu, bu səbəblə Şuşanı axıra qədər qorumağa çalışacaqlarını bəyan etmişdi. Separatçı rejimin başçısı Araik Arutunyan da o günlər Şuşanı Ermənilərin simvolu, döyünən ürəyi adlandıraraq bütün dünya Ermənilərini şəhərin müdafiəsinə çağırırdı.

Şəhr-i Şuşa və ya Qala Şuşa adlandırılan bu şəhəri Qarabağ xanı Pənahəli xan dövlətinin təhlükəsizliyini təmin etmək məqsədiylə, dağların əhatəsində, təbii istehkamları etibariylə də asan ələ keçirilə bilməyəcək möhkəm və keçilməz bir qala olaraq tikməyə qərar vermişdir. Dəniz səviyyəsindən 1600 metr hündürlükdə yerləşən Şuşa dağ yaylaları, sıldırım qayalıqlarla əhatə olunmuşdur. Məhz hərbi- strateji mövqeyinə görə də Pənahəli xan dövlətinin paytaxtı olaraq Şuşa şəhərini seçmişdir. Azərbaycan mədəniyyətinin də beşiyi olan Şuşa şəhəri yetişdirdiyi məşhur incəsənət və mədəniyyət xadimlərinə görə Qafqazın sənət məbədi, konservatoriyası kimi adlarla da anılmışdır. Türkiyənin də yaxından tanıdığı, Nuru Paşanın müşaviri, Atatürkün yaxın silahdaşlarından, Anadolu Agentliyinin qurucusu, Azərbaycan-Türkiyə qardaşlığının körpü şəxsiyyətlərindən olan Əhməd Ağaoğlu Şuşalıdır. Yenə Azərbaycan Türklərinin böyük bəstəkarı və fikir adama "Koroğlu" və "Leyli və Məcnun" operalarının da müəllifi, 1918-20 ci illər Cümhuriyyət dövründə

rəsmi dövlət qəzeti olan “Azərbaycan” qəzetinin baş redaktoru olmuş Üzeyir Hacıbəyov, Şərq aləmində ilk balet olan “Qız Qalası” baletinin yazarı olan Bədəlbəylilər nəsli, musiqi sahəsində dünya çapında şöhrətə sahib olan Əmirovlar nəsli Şuşa kökənlidir. 7 İyul 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil edildiyi zaman vilayət mərkəzi olaraq da Şuşa şəhəri seçilmiş lakin şəhər əhalisinin mütləq əksəriyyəti Müsəlman Türklərdən ibarət olduğu üçün burada milliyyətçi fəaliyyətlərini həyata keçirə bilməyəcəklərini anlayan vilayətin erməni idarəçiləri daha sonra vilayət mərkəzinin Xankəndinə daşınmasına nail olmuş, oranın da adını dəyişdirərək Ermıəni bolşeviki Stepan Şamuyanın adıyla Stepanakert adlandırmışdır.

Müharibə zamanı Şuşanı əldən verməmək üçün hətta İsgəndər- M raketlərindən də istifadə edilmişdir. Məlumdur ki məğlubiyyət yaşayan Ermənistan ordusundan qənimət kimi götürülmüş böyük əksəriyyəti Rusiya istehsalı olan hərbi texnika və silahlar Bakıdakı Qənimətlər parkında sərgilənməkdədir. Açıq hava muzeyi mahiyyətindəki bu Parkda ANAMA tərəfindən Şuşada aşkar edilən, beynəlxalq müqavilələrə zidd olaraq Ermənistana verilmiş “İsgəndər-M” raketinin qalıqları da nümayiş etdirilməkdədir. Azərbaycan prezidenti İ. Əliyevin o raket guşəsinin önündə həm Moskva, həm də Yerevana ünvanladığı suallar hələ də aktual olaraq qalmaqdadır. “ Şuşanı bax, bu “İsgəndər-M” raketləri ilə ermənilər atəşə tutmuşdular. Haradandır, bu raketlər Ermənistan ordusunda? Bu raketlər olmamalı idi. Artıq bu, əyani sübutdur. Ermənistanın hərbi cinayətinin sübutudur və biz cavab istəyirik. Bu ölümcül silah Ermənistanın əlinə necə düşdü? Hələ ki, cavab ala bilməmişik. Amma alacağıq. Hər kəs gəlsin, bu həqiqətləri görsün”.

Şuşa zəfəri heç şübhəsiz Türkiyə- Azərbaycan qardaşlığının, hərbi sahədə əməkdaşlıq və müştərək güc formalaşdırmasının önəmini də ortaya qoymuşdur.

Sovet İttifaqının dağılmasından sonra hərbi müstəvidə Türkiyə və Azərbaycan arasında getdikcə dərinləşən, iki Oğuz ordusunu qardaşlıq ittifaqına götürən bir tarix yaşanmışdır. Müstəmləkə dövrü sonrasında Azərbaycanın Qarabağ başda olmaqla işğal və ərazi bütövlüyü problemi yaşadığını, regional təhlükəsizlik ehtiyacını diqqətə alan Türkiyənin hərbi elitası Bakının güclənməsinə çalışmış, bunu Türkiyənin də regionda təsirinin artması olaraq görərək mümkün olan dəstəyi əsirgəməmişdir. İki qardaş ölkə ordularının əməkdaşlığı yalnız Azərbaycan Silahlı Qüvvələrinin gücləndirilməsi baxımından deyil, eyni zamanda, bölgədə sabitlik və təhlükəsizliyin təmini, ortaq güc formalaşdırmaq yoluyla milli problemlərin həll edilməsi məsələsində də mühüm əhəmiyyət kəsb etmişdir. 44 günlük müharibə sonrasında Azərbaycan Ordusunun əldə etdiyi Qarabağ zəfəriylə Cənubi Qafqazda yaranan yeni geo-siyasi güc balansı bütün yönləriylə təhlil edildiyi zaman Türkiyə-Azərbaycan ordularının hərbi əməkdaşlığının burada necə kritik bir rola sahib olduğu da anlaşılacaqdır.

İki qardaş ölkə ordularının əməkdaşlığı yönündə ilk hüquqi addım 11 avqust 1992-ci ildə imzalanan hərbi təhsil sahəsində əməkdaşlıq haqqında müqavilənin bağlanmasıyla atılmış, Türkiyə Silahlı Qüvvələrinin təhsil müəssisələrində minlərlə azərbaycanlı zabit hazırlanmış, dəyişən şərtlərin ruhuna uyğun olaraq geopolitik güc və imkan dəngəsi içində, tədricilik metodologiyasıyla inkişaf edərək hərbi ittifaq səviyyəsinə qədər yüksəlmişdir. İki qardaş ölkə arasında qarışlıqlı milli maraqların təmin edilməsiylə birlikdə Türkiyə Silahlı Qüvvələri digər

bir istiqamət olan Azərbaycanın NATO ilə birgə iş potensialının inkişaf etdirilməsi, Avro-Atlantik məkana inteqrasiyası məsələsində də əməkdaşlığa mühüm töhfələr vermişdir. Qərblə Şərqin qovuşduğu nəqliyyat dəhlizləri, neft-qaz boru xətləri, yollar baxımından olduqca strateji bir coğrafiyada yerləşən Azərbaycan, Avro-Atlantik məkanın təhlükəsziliyin təmini baxımından da önəmli olduğu üçün NATO-nun Sülh Üçün Əməkdaşlıq proqramına daxil edilmiş, bu fəaliyyətlər də Türkiyə vasitəsi ilə həyata keçirilmişdir.

Azərbaycan Ordusunun zabit ehtiyacını qarşılayan ən önəmli təhsil müəsəsələrindən biri olan Bakı Ali Hərbi məktəbi də Türkiyənin aktiv iştirakı və köməyiylə NATO standartlarında təhsil verən təhsil ocağı halına gətirilmişdir. İki qardaş ölkənin müdafiə nazirlirlikləri arasında təmənnasız hərbi yardım, maliyyə yardımı, müdafiə sənayesi, təlim-tədris və maddi-texniki təminat sahələrində əməkdaşlıq haqqında, "Kosovo Türk Taburu Görev Küvveti" tərkibində Kosovoya gedəcək Azərbaycan taqımının fəaliyyətinə dair saziş, Daxili Qoşunların şəxsi heyətinə Türkiyənin Quru Qoşunlarının Ali Hərbi Məktəbində təlim-tədris verilməsi haqqında protokol və digər çoxsaylı saziş və müqavilələr imzalanmışdır. 20 iyul 2016-cı ildə Azərbaycan prezidenti İ. Əliyevin imzaladığı fərmanla "Qızıl Şərq" hərbi şəhərciyində yerləşən bina və tikililər, Hacı Zeynalabdin qəsəbəsindəki aerodromda yerləşən bir terminal binası Türkiyə Silahlı Qüvvələri şəxsi heyətinin istifadəsi üçün ayrılmışdır.

2010-cu il sentyabrın 15-də imzalanmış müqavilə ilə Azərbaycan və Türkiyənin Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması əlaqələrin inkişafında yeni mərhələnin də əsasını qoymuşdur. Müqavilənin maddələrindən birinə görə, ölkələrdən hər hansı birinə qarşı hərbi hücum həyata keçirilərsə

hücuma uğramayan ölkə bütün imkanlarını istifadə edərək hücuma uğrayan ölkəni dəstəkləyəcəkdir. Bu müqavilə faktiki olaraq iki qardaş ölkənin hərbi ittifaq müqaviləsi olaraq da dəyərləndirilə bilər. İki ölkə ordularının müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, o cümlədən yerdən və havadan zərbələr endirməklə düşmən hədəflərinin məhv edilməsi tapşırıqlarının yerinə yetirirlməsiylə bağlı zirehli texnika, artilleriya qurğuları, hərbi aviasiya və hava hücumundan müdafiə qüvvələrinin də cəlb edilməsiylə həyata keçirilən çox saylı birgə təlimlər də birlik və əməkdaşlığın önəmli istiqamətlərdən birini təşkil etmişdir. 44 günlük Qarabağ müharibəsi başlayan qədər Azərbaycan ordusuyla Türkiyə ordusu arasında çox sayıda birgə təlim həyata keçirilmişdir. Qars müqaviləsinə görə Türkiyə Naxçıvanın təhlükəszliyinə də təminat verən ölkədir.

Türk dünyasının mədəniyyət paytaxtı olan Şuşaya ayaq basan ilk xarici ölkə başçısı olan cənab Ərdoğanın iştirakıyla imzalanan tarixi mahiyyətdəki Şuşa bəyənnaməsi regionda yeni geosiyasi şərait yaratmaqla birlikdə hərbi- təhlükəsizlik sahəsindəki yaxın əməkdaşlığı da yeni müstəviyə çıxartmışdır. Şuşadakı mərasim zamanı prezident İ. Əliyevin yüz il əvvəl imzalanan Qars müqaviləsini xatırlatması, müqavilə mətnində ən önəmli müddəalardan biri olaraq üçüncü ölkə və ya ölkələrin tərəflərdən hər hansı birisinə təcavüz həyata keçirilməsi halında qarşılıqlı hərbi yardım haqda öhdəliyin yer alması, müharibə anında Türkiyə və Azərbaycan ordularının vahid standartlar, təlim, hərbi texnika və idarəetməyə gedəcəyinin bəyan edilməsi regionda yeni vəziyyətin elanıdır. Bu müqavilə sadəcə region və iki qardaş ölkə münasibətləri baxımından deyil Türk Dünya-

sının inteqrasiyasının dərinləşdirilməsi, hərbi- təhlükəsizlik müstəvisində müştərək güc inşası baxımından da mühüm əhəmiyyət kəsb etməkdədir.

# *ANADOLU'DA TÜRK-İSLAM MEDENİYETİNİN OLUŞMASINDA AZERBAYCAN'IN ROLÜ*

***Dos. Dr. Elnur NƏSİROV***

***Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının Tarix, pedaqogika və sosial elmlər kafedrasının müdiri***

***elnur.nesirov@gmail.com***

Anadolu Selçukluları döneminin Anadolu'nun Türkleşmesi ve İslamlaşması sürecinde fevkalade önemi haiz olduğu şüphesizdir. Kaynaklarda ister Malazgirt meydan muharebesi (1071) sonrasındaki fetih hareketi, isterse de fetihten sonra Anadolu'nun ekonomik, sosyal ve kültürel hayatında Azerbaycan'ın rolü ve önemi kanıtlayan önemli bilgiler aktarılmaktadır. Söz konusu süreçte Azerbaycan'ın farklı bölgelerinden ilim, kültür ve devlet adamları Anadolu'ya gelerek yerleşmişlerdi. Bu beyin göçü Moğol istilası döneminde özellikle artmış ve hızlanmıştı. XII-XIII yüzyıllarda Azerbaycan Atabeyleri Devleti'yle doğu Anadolu'daki Türk Beylikleri arasında sıkı bir işbirliği ve dostluk ilişkileri mevcut olmuştur. Özellikle Gürcü çarlarının saldırgan tutumu Azerbaycan Atabeyleri'yle Anadolu Selçuklu Devleti ve doğu Anadolu'daki Türk Beylikleri'ni aralarındaki siyasi-askeri işbirliğini daha da kuvvetlendirmek zorunda bırakmıştı. Moğol saldırıları arefesinde Celalü'd-Din Harezmşah'ın Azerbaycan'ı işgal ederek Azerbaycan Atabeyleri Devleti'nin varlığına son vermesi Azerbaycan'la Anadolu Selçukluları arasındaki ilişkilerde gerginliğe yol açmıştır. Bu hadiseden sonra özellikle siyasi ve ticari-ekonomik ilişkilerde bir zayıflama müşahede edilmiştir. Buna rağmen bu devirde yüksek refah düzeyine ulaşmış Azerbaycan şehirleriyle, ekonomik açıdan kendisinin en gelişmiş çağını yaşayan Anadolu Selçuk-

luları arasındaki ticari-ekonomik ilişkiler küçümsenmeyecek seviyede olmuştur. Araştırmamızda Azerbaycan'daki mühim ticaret merkezlerini Anadolu'ya bağlayan ticaret yolları hakkında önemli bilgilere yer verilmiştir.

XIII yüzyıl başları Azerbaycan'la Anadolu arasında özellikle bilimsel-kültürel ilişkiler bakımından fevkalade önemli ve verimli bir devirdir. Bu iki coğrafyada yaşayan Türkler arasında yüksek düzeyli ve verimli bilimsel-kültürel ilişkilerin kurulmasında özellikle Ahiler'in ve Ahi teşkilatının oynadığı rol takdire değerdir. Anadolu Ahiliği'nin temeli Azerbaycan Ahîleri tarafından konmuşur. Şöyle ki, Anadolu'da Fütuvvet teşkilatının ünlü simaları arasında Azerbaycan kökenli kişilere rastlanmaktadır. Fütuvvet teşkilatının öncü kişiliklerinden Ahî Evren olarak bilinen Şeyh Nasîreddin Mahmud Hoyî (öl.1261), Ahî Türk oğlu Hüsameddin Hasan Çelebî (öl. 1284), Kazı Mecdeddin Merendî, Mimar Bedreddin Tebrizî (öl. 1284'ten sonra), Şems-i Tebrizî (öl. 1247), Esireddin Ebherî (öl. 1262-1265), Kadı İzzeddin Hasan Urmevî (öl. 1277), Tabip Necmeddin Nahçıvanî (öl. 1302), Tabip Ekmeleddin Nahçıvanî (öl. 1274'ten sonra), Tabip Gazanfer Tebrizî (öl. 1279'dan sonra), Kadı Taceddin Hoyî (öl. 1277), Kadı Siraceddin Urmevî (öl. 1283) Celalettin Karatay ile aynı dönemde Anadolu'nun siyasal, bilimsel ve kültürel hayatında önemli rolü olmuş tarihî kişilerdir.

# *AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN INŞASINA TƏSİRİ*

***Dr. Orxan VƏLİYEV***

***Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri***

***ovaliyev@khazar.org***

Modern dövlətin əsas xüsusiyyəti suverenlikdir. Suverenliyin hüquqi mənbəyi olaraq müəyyən edilən millətlər isə modern dövlətə milli sifətini qazandırmışdır. Vestalya müqaviləsi modern dövlətlərin hüquqi konturlarını müəyyən etmişdir. Modern Azərbaycanın ilk müstəqil hüquqi mətni isə cümhuriyyətin elanı üçün yazılan İstiqlal Bəyannaməsi olmasına baxmayaraq dövlət inşaasını yetkinləşdirən konstitusiyaya çevrilə bilməmişdir. Bu səbəblə modern Azərbaycan dövlətinin inşaası üçün müəyyən edilən və eyni zamanda həm suverenlik həm də milli prinsipləri ehtiva edən türklük, müasirlik və islam mədəniyyətinə mənsub olmaq prinsipləri Sovet dövründə dövlət, kimlik inşaasından kənarda qalmışdır. Müstəqilliyin bərpası dövlətçiliyin milli prinsiplər çərçivəsində inşaasına imkan yaratmışdır. Bu mənada Türkiyə ilə qurulan münasibətlərin həlledici olduğu ifadə edilə bilər. İkili münasibətlərin siyasi dəyərləndirməsi isə “bir millət iki dövlət” prinsipi çərçivəsində müəyyən edilmişdir. Dövlət inşasının təməlində olan və suverenliyi mümkün edən əsas amillərin başında ordu quruculuğu gəlir. Ordu quruculuğunun inkişafı Azərbaycan-Türkiyə münasibətlərinin əsas prioritetlərindən hesab edilə bilər. Belə ki, 44 günlük Vətən müharibəsində Azərbaycan ordusunun hazırlıq səviyyəsində Türkiyə faktoru həlledici olmuşdur. Digər tərəfdən Türkiyə ilə olan münasibətlər post-müharibə dövründə də dövlət inşasında həlledici amil kimi əhəmiyyətini qorumağa davam edir.

## *TÜRK DÜNYASINDA BAŞ VERMİŞ MƏDƏNİ HADİSƏLƏRƏ "ŞƏRQ QADINI" JURNALININ TƏSİRİ*

***Dr. Pərvanə RZAYEVA***

***Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının Keyfiyyətin təminatı şöbəsinin müdiri***

***Tarix, pedaqogika və sosial elmlər kafedrasının baş müəllimi***

***pervane.rzayeva@quba.adpu.edu.az***

Azərbaycan qadını Türk dünyasının bir hissəsi olaraq tarixən mövcud olmuş dövlət və imperiyaların daxilində yüksək mədəni və əxlaqi dəyərlərə sahib olaraq ailədə və cəmiyyətdə üstün hüquqlara malik olmuşdur. Heç təsadüfi deyildir ki, 1918-ci il may ayının 28-də Şərqdə ilk demokratik cümhuriyyət olan Azərbaycan Demokratik Respublikasında maarif işi, təhsil və qadın təhsili məsələsi ön planda yer tutmuş, Şərqdə qadın hüquqlarının ilk təminatçısı olmuşdur.

Sovet hakimiyyəti qurulduqdan sonra da ailə-məişət, qadın mövzusu ziyalılar tərəfindən geniş şəkildə müzakirə edilən ən aktual məsələlərdən olmuşdur. Məhz belə bir dövrdə bu mövzuda mədəni-maarifləndirici işləri 1923-cü ildən çap olunmağa başlayan "Şərq qadını" jurnalı öz üzərinə götürmüşdü.

XX yüzilliyin əvvəllərində Azərbaycan ziyalılarının bir qismi Osmanlı təhsilinin təsiri ilə formalaşmışdır. Ona görə də Azərbaycanda baş verən ictimai-siyasi proseslərə də Osmanlı elitasının baxışı ilə eyni bucaqdan baxılırdı. "Şərq qadını" jurnalının da yaranmasında və formalaşmasında Osmanlı mühitinin də öz təsiri olmuşdur. Cümhuriyyətin elanından sonra "Şərq qadını" jurnalı ilə təxminən eyni vaxtda (1924) nəşr olunan "Firuzə" jurnalında daha çox qadın təhsilinin yollarından, qadın hüquqlarının müdafiəsindən, dünya qadın hərəkatla-

rından, qadın şüurundan, türk qadınlarının siyasi hərəkatından, gigiyena və qidalanma mədəniyyətindən və sair mövzulardan bəhs edən yazılar çap olunurdu.

Türkiyədən dəvət olunmuş, 1923-1926-cı illərdə Bakı Dövlət Universitetində pedaqogika və psixologiya fənlərini tədris etmiş Xəlil Fikrət Kanad (1892 - 1974) "Şərq qadını" jurnalında uşaq tərbiyəsi, pedaqoji aspektdən maariflənmə mövzularında çoxlu sayda məqalələr yazmışdır ki, bu da həmin dövrdə Türkiyə ilə Azərbaycandakı problemlərin eyniyyət təşkil etdiyini göstərir.

"Şərq qadını" jurnalının yaradılmasına Azərbaycanda və Rusiyada baş verən siyasi, inqilabi hadisələr, Türkiyə mühiti təsir etmişdisə də "Şərq qadını" jurnalının da təsir çevrəsi təkcə Azərbaycanla məhdudlaşmayaraq, Türküstanadək gedib çıxmışdı.

## *İKİNCİ QARABAĞ MÜHARİBƏSİ: AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ MÜHÜM KƏSİŞMƏ NÖQTƏSİ*

***Dr. Rüxsarə QULİYEVA***

***Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi***

***rukhsare.guliyeva@khazar.org***

Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbuat orqanı olan Azərbaycan qəzetinin 1918-ci il 7 noyabr tarixli nömrəsində yazılırdı: "Bakı məmləkətimizin cismini, bədənini təşkil etdikdə, Qarabağ Azərbaycanın ruhunu, onun zövqünü təşkil edir. Bakı Azərbaycanı maddi cəhətdən təmin edirsə, hər kəsə məlumdur ki, Qarabağ onu mənəvi cəhətdən təmin edir.. Bunun üçün Qarabağı əlimizdə bərk-bərk saxlamaq bizim üçün həyat və ölüm məsələsidir". Qarabağ maddi-mənəvi xüsusiyyətlərə malik tarixi mahiyyəti, təbii sərvətləri və strateji-coğrafi mövqeyi ilə tarix boyu regionda olan və ya marağı olan dövlətlər və Azərbaycan arasında problem yaratmışdır.

Tarixən türk-müsəlman əhalinin yaşadığı bölgə olan Qarabağ XX əsrin əvvəllərindən etibarən silahlı quldur erməni dəstələrinin hücumuna məruz qalmışdır. Bu hücumun əsas səbəbi "dənizdən dənizə böyük Ermənistan" ideyasını reallaşdırmaq istəyi idi. 1988-ci ildən etibarən isə Qarabağ problemi yeni məcraya girmiş, işğal prosesi başlamışdı. Qovulma, qətliam, soyqırım, işğal ilə davam edən proses 12 may 1994-cü il tarixli Bişkek protokolu ilə müvəqqəti dayandırılmış, atəşkəs elan edilmiş, 2020-ci ilin 27 sentyabrında başladılan hərbi əməliyyatlarla isə Birinci Qarabağ müharibəsi kimi tarixə düşmüşdü. 27 sentyabr - 10 noyabr 2020-ci il tarixləri arasında baş ve-

rən İkinci Qarabağ Müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatmışdı.

Qarabağ problemi həmişə Azərbaycan-Türkiyə münasibətlərinin prioritet mövzusu olmuşdur. 1991-ci ildə SSRİ-nin dağılma ərəfəsində müstəqilliyini elan edən Azərbaycanın əsas problemi Qarabağ məsələsi idi. Müstəqilliyimizi ilk tanıyan və torpaqlarımızı işğal edən Ermənistanı işğalçı dövlət elan edib onunla sərhədlərini bağlayan ölkə Türkiyə olmuşdur.

Azərbaycan müstəqilliyini əldə etdikdən dərhal sonra xarici siyasətində Türkiyə ilə yaxınlaşmağa üstünlük vermişdir. İki ölkə arasında münasibətlərin yaxşılaşdırılması üçün hərbi təhlükəsizlik, müdafiə, viza, vergi, maliyyə, təhsil və mədəniyyət sahələrində müqavilələr imzalanmış, bununla da qarşılıqlı münasibətlərin hüquqi-normativ bazasının yaradılması sahəsində mühüm addımlar atılmışdı. Yüksələn xətt üzrə inkişaf edən bu münasibətlər reallaşdırılan enerji layihələri ilə daha da möhkəmlənmiş, eyni zamanda iki ölkənin regional qüvvəsini artırmış, qlobal mövqelərinin güclənməsinə, dolayısı ilə Qarabağ düyünün açılmasına səbəb olmuşdur. Azərbaycanın müstəqillik qazanması ilə intensivləşməyə başlayan əlaqələr müharibə vaxtı və müharibədən sonra ən yüksək strateji tərəfdaşlıq səviyyəsinə çatmış və yeni mərhələyə qədəm qoymuşdur.

Türkiyə 44 günlük müharibədə siyasi, diplomatik və hərbi imkanları ilə Azərbaycanı ən yüksək səviyyədə dəstəklədi. Türkiyə müdafiə sənayesinin məhsulu olan PUA/SPUA-dan, yüksək mənzilli TRG-300 raketi kimi strateji silahlardan uğurla istifadə edilməsi müharibədə Azərbaycanın təkcə hərbi deyil, həm də psixoloji baxımdan üstünlük qazanmasına mühüm təsir göstərdi.

İkinci Qarabağ Müharibəsi Türkiyə-Azərbaycan münasibətlərində mühüm kəsişmə və dönüş nöqtəsinə çevrildi, iki ölkə arasında möhkəm təməllərə söykənən münasibətləri fərqli müstəviyə daşıdı. Tarixi qələbədən sonra Zəfər paradında Azərbaycan və Türkiyə prezidentləri çıxışlarında dünyaya xalqlarımızın və ölkələrimizin birliyinin gücü və daim bir-birinin yanında olmaları barədə aydın mesajlar verdilər. Qarabağ zəfəri hər şeydən əvvəl torpaqları qeyri-qanuni işğal altında olan dövlətlərə, xüsusilə türk və İslam dünyasına bu vəziyyətin sonsuza qədər davam etməyəcəyi mesajını verməklə yanaşı, Türk dünyasının hərtərəfli əməkdaşlığı üçün zəmin yaratdı. Şübhəsiz ki, bu qələbə Azərbaycan və Türkiyə arasında iqtisadi, siyasi və hərbi inteqrasiya prosesini sürətləndirəcək yeni yolun başlanğıcını qoydu. Hazırda Türkiyə ilə Azərbaycanın müttəfiqliyi regionun taleyinin həllində əsas rol oynayır. Bu, Rusiyanın regionda monopoliyasına da mənfi təsir göstərir.

Müharibədən sonra Azərbaycan-Türkiyə əməkdaşlığının artan xətt üzrə inkişafının ən bariz nümunələrindən biri 2021-ci il iyunun 15-də Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın Şuşada “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”ni imzalamaları oldu. Bu sənəddən irəli gələrək strateji müttəfiqlik münasibətləri bütün sahələrdə uğurla inkişaf etdirilir. Hazırda Türkiyə Azərbaycan Ordusunun ən müasir tələblər səviyyəsində modernləşdirilməsinə fəal dəstək göstərir, ordunun peşəkarlığının artırılması məqsədilə mütəmadi qaydada hərbi təlimlər keçirilir. Müharibədən sonra hər iki ölkə arasında iqtisadi əməkdaşlıq da artan xətt üzrə davam edir. Azərbaycanda qeyri-neft sektoruna investisiya yatıran ölkələr sırasında Türkiyə birinci yerdə durur.

Azərbaycan və Türkiyə tarix boyu bir sıra sınaqlarla üzləşsə də, həmin çətinliklərdən mətanətlə çıxıblar. Ən fərəhləndirici məqam ondan ibarətdir ki, dövlətlər ilə yanaşı, xalqlar bu çətinliklərin öhdəsindən gəlmək üçün müxtəlif tarixi dövrlərdə bir-birinə əsl qardaşlıq dəstəyi göstəriblər. Azərbaycan xalqı ilk dəfə mütəşəkkil həmrəyliyi XX əsrin 80-ci illərində ermənilərin Qarabağda törətdikləri özbaşınalıqlara etiraz edərkən, ikinci dəfə İkinci Qarabağ Müharibəsində, üçüncü dəfə isə 6 fevral 2023-cü ildə Türkiyədə baş verən zəlzələdən sonra nümayiş etdirmişdi. Dövlət səviyyəsində göstərilən dəstək ilə yanaşı, xalqın da həmrəylik nümayiş etdirməsi dünya ictimaiyyətinə Azərbaycanın Türkiyə, Türkiyənin Azərbaycan üçün hansı önəmi daşıması mesajını vermişdi..

## *ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN İLƏ TÜRKİYƏNİN İQTİSADİ VƏ TİCARƏT ƏLAQƏLƏRİ*

***Dr. Söhrab MUSTAFAYEV***

***Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi***

***smustafayev@khazar.org***

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 3 oktyabr 1993-cü ildə keçirilən tam demokratik səsvermə nəticəsində Azərbaycan Respublikasının prezidenti seçilmişdir. Onun hakimiyyəti dövründə sözün əsl mənasında bütün sahələri əhatə edən tam müstəqil bir siyasət izlənmişdir. Bu siyasətin əsas qollarından biri də şüphəsiz ki, iqtisadi azadlıqdır. Bunun təmin edilməsi üçün başda qonşu ölkələr olmaqla, bir çox dövlətlə yaxın münasibətlərin yaradılması son dərəcə vacib idi. Türkiyə, Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birini, hətta ən əsasını təşkil edirdi. Türkiyə ilə yaradılacaq münasibətlərin iqtisadi azadlıq məsələsində Azərbaycan üçün həyati əhəmiyyətə malik olduğunu yaxşı bilən Heydər Əliyev hakimiyyətdə olduğu dövr ərzində iki ölkə əlaqələrinin gücləndirilməsi üçün böyük işlər görmüşdür. Qarşılıqlı ziyarətlər, imzalanan müxtəlif müqavilələr və əldə olunan razılaşmalar bu məqsədə xidmət edirdi. İki ölkə xalqı arasındakı qardaşlığı və tarixi birlikdəliyi əsas alaraq həyata keçirilən bu siyasi addımların Türkiyə-Azərbaycan əlaqələrinin bu günkü səviyəyə çatdırılmasında önəmli rola malik olduğunu qeyd etməliyik.

Heydər Əliyevin prezident seçiləndən qısa zaman sonra, tam dəqiq desək 8-11 fevral 1994-cü ildə Türkiyəyə gərçəkləşdirdiyi ziyarət bu səbəblə böyük önəm daşıyır. Bu, eyni zaman-

da Heydər Əliyevin Türkiyəyə ilk rəsmi ziyarəti olmuşdur. Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəlin xüsusi dəvətinə əsasən gərçəkləşən ziyarətdə iki ölkə arasında hərtərəfli, o cümlədən gömrük, maliyyə, sənaye, səhiyyə, təhlükəsizlik, təhsil və təsərrüfat sahələrində "elmi, texniki, sosial və iqtisadi sahələrdə hərtərəfli əməkdaşlıq müqaviləsi" imzalanmışdır. Çoxsaylı protokolları əhatə edən müqavilə 9 fevral 1994-cü ildə imzalanmış, 8 aprel isə təsdiqlənib qüvvəyə minmişdir. Sözü gedən müqavilədə gömrük məsələləri ilə bağlı razılıq da əldə olunmuşdur. Ticari münasibətlərin artırılması və sürətləndirilməsi baxımından vacib olan bu məsələdə iki tərəf də birbirlərinin işarə və sənədlərini qarşılıqlı olaraq tanımağı qəbul etmişdirlər.

İmzalanan bu müqavilələr iki ölkə münasibətləri baxımından yeni bir dövrün başlanğıcı kimi qəbul edilmişdir. Heydər Əliyev türk iş adamları ilə keçirdiyi görüşdə özü də bunu ifadə etmiş və bu müqavilənin Türkiyə-Azərbaycan əlaqələrini daha yüksək səviyyə çatdırmaq üçün böyük bir fürsət yaratdığını ifadə etnişdir. Bundan başqa Azərbaycanın mənimsədiyi sərbəst ekonomi modelinin inkişaf etdirilməsi üçün də Türkiyənin rolunu xüsusi olaraq qeyd etmişdir. Həmən iclasda Türkiyənin böyük şirkətləri ilə əməkdaşlıq məsələsinə də geniş şəkildə toxunan Ümummilli Lider, bu şirkətlər üçün hər cür imkan və şəraitin yaradılacağını da bildirmişdir. Bu ziyarət zamanı sözü gedən istiqamətdə olduqca böyük addımlar atılmışdır. 9 fevral 1994-cü il tarixli razılaşmaya əsasən iki ölkə arasında investisiyaların genişləndirilməsi və yayğınlaşdırılması haqqında saziş imzalanmışdır. Bu saziş sayəsində iki ölkənin investorları üçün əlverişli şərait yaradılmışdır. Həm Azərbaycan, həm də Türkiyə birbirlərinin vətandaşlarına oturum icazəsi verməyi qəbul et-

mişdir. Buradan da açıq şəkildə anlaşılır ki, o, Türkiyə ilə Azərbaycan arasında yaradılacaq münasibətlərə, xüsusi ilə də iqtisadi məsələlərə çox böyük əhəmiyyət verirdi. Ulu Öndər eyni zamanda uzun illərdir sosialist iqtisadi model ilə idarə olunan Azərbaycanı dünya reallıqlarına yaxınlaşdırmaq və ölkədə liberal ekonomi modelini tətbiq etmək niyyətində idi. Şüphəsiz, iqtisadi sahədəki əməkdaşlığın əsas istiqamətlərindən biri də enerji məsələsi idi. Türkiyənin enerji naziri Veysel Atasoyun 8-10 avqust 1994-cü ildə Azərbaycanı ziyarət etməsi bu istiqamətdə atılmış mühüm addımlardandır. Eyni ilin sentyabr ayında Əsrin Müqaviləsinin imzalanması ilə Türkiyə neft şirkətinin (TPAO-Türkiye Petrolleri Anonim Ortaklığı) Azərbaycan neftindəki payı artırılaraq 1,75 faizə çatdırılımışdır. 12 aprel 1995-ci ildə Türkiyənin baş naziri Tansu Çillərin iştirakı ilə Bakıda sözü gedən müqavilənin imza mərasimi keçirilmişdir.

Hələ Heydər Əliyev hakimiyyətə gəlmədən əvvəl də iki ölkə arasında ticari və iqtisadi sahələr başda olmaqla, bir çox sahədə razılıqlar əldə olunmuş və sazişlər imzalanmışdı. Ancaq bunlar rəsmi şəkildə təsdiq edilmədiyi üçün qüvvəyə minməmişdi. Misal üçün 2 noyabr 1992-ci ildə iki ölkə arasında Ankarada imzalanan "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq və həmrəylik müqaviləsi" 20 yanvar 1994-cü ildə təsdiq olunmuşdur. Sözü gedən müqavilədə ticari məsələlərə olduqca geniş yer ayrılmış və ikinci maddəsində "tərəflər ticari və iqtisadi əməkdaşlığın iki ölkə münasibətlərinin vacib bir hissəsini təşkil etdiyindən hərəkətlə aralarındakı ticarət həcminin mövcud potensiala uyğun bir səviyəyə çatdırılması, ortaq investisiya layihələrinin inkişaf etdirilməsi və həyata keçirilməsi istiqamətində işlər görəcəklərdir" ifadəsinə yer verilmişdir. Bu müqavilənin təsdiqlənməsindən çox qısa bir za-

man sonra 8-11 fevral 1994-cü ildə Heydər Əliyevin Türkiyəyə ilk rəsmi ziyarətinin baş tutması əlbətdə ki, təsadüfi deyildi. Qarşılıqlı ticarətin inkişaf etdirilməsi məqsədi ilə quru yol üzərindən nəqliyyat vasitələrinin hərəkəti ilə bağlı addımlar da atılmışdır. Bu sahədə də 1992-ci ilin noyabr ayında saziş imzalanmış, ancaq uzun müddət təsdiq edilməmişdir. Heydər Əliyevin səyləri nəticəsində sözü gedən saziş 15 sentyabr 1994-cü ildə təsdiq edilmişdir.

1992-ci il sazişi iki ölkə münasibətləri üçün böyük önəm daşıyırdı və güclü potansiala malik idi. Ancaq Ümummilli Lider hakimiyyətə gələnə qədər bu potansiala uyğun işlər görülməmişdi. Misal üçün sözü gedən sazişin IX maddəsində Azərbaycan ilə Türkiyə arasında ikitərəfli iqtisadi komissiyanın yaradılması nəzərə alınmışdı. Bu komissiyanın yaradılması və fəaliyyətə başlaması yenə Heydər Əliyevin hakimiyyət illərinə təsadüf edir. Əlbətdə bu təsadüf deyil idi. Bu, Ümummilli Liderin başçılığı altında onun təlimatları ilə həyata keçirilmiş uğurların nəticəsi idi. Olduqca maraqlıdır ki, sazişin "ümumi vəziyyət" hissəsində iki qardaş ölkə arasındakı ticarət həcminin sahib olunan potansialdan uzaq olduğu da qeyd edilmişdir. Bu vəziyyətin dəyişdirilməsi məqsədi ilə tərəflər arasında qarşılıqlı səylərin göstərilməsi məsələsində razılıq əldə olunmuşdur. Bu istiqamətdə iki ölkə də özəl sektorun daha aktif şəkildə çalışmasının vacibliyini vurğulamışdır.

Azərbaycanın və Türkiyənin potensialı ticarət və iqtisadi sahədəki münasibətlərin çox daha məhsuldar olmasına şərait yarada bilərdi. Təəssüf ki, Heydər Əliyevin hakimiyyətindən əvvəl Azərbaycanda siyasi sabitlik mənasında dərin boşluqlar olması buna mane olmaqda idi. Ümummilli Liderin hakimiyyətə gəlməsi ilə birlikdə bu proses iki qardaş ölkənin xeyrinə

dəyişməyə başlamışdır. Burada Heydər Əliyevlə birliktə Türkiyənin o dövürdəki prezidenti Süleyman Dəmirəlin cəhtlərini də xüsusi olaraq qeyd etmək lazımdır. İki dövlət başçısının yaxın münasibətləri şüphəsiz ki, möhkəm qardaşlıq prensibinə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərini daha da gücləndirirdi.

## *I DÜNYA MÜHARİBƏSİNDƏ VƏ ONDAN SONRAKI DÖVRDƏ OSMANLI DÖVLƏTİNİN QAFQAZ SİYASƏTİNDƏ AZƏRBAYCAN MƏSƏLƏSİ*

**_Dr. Mürvət ƏLİYEV_**

**_Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının direktor köməkçisi_**

**_murvet.eliyev@quba.adpu.edu.az_**

I Dünya müharibəsi bəşəriyyət tarixinin əhatə dairəsi və qoşulduğu dövlətlərin sayına görə ilk ən böyük müharibəsi olmuşdur. Bu müharibə başlamazdan öncə savaşa qoşulan hər bir dövlətin öz xüsusi maraqlarını əhatə edəcək planları var idi. İki əsas blok olan Antanta və Üçlər ittifaqı dünya xəritəsini yenidən çəkmək və bu xəritədə öz sərhədlərini daha da genişləndirmək üçün əllərindən gələni etməyə hazır idilər. Bu blokların hər birinin planlarından xəbərdar olan Osmanlı İmperiyası böyük dövlətlərin qurbanına çevrilməmək üçün var gücü ilə çalışır və müharibədən necə karlı çıxmaq mümkündür bunun yollarını axtarırdı. Müharibəyə Antanta tərəfdən qoşulmağa cəhd edən Osmanlı bu istəyi yerinə yetmədiyi üçün Almaniya və onun müttəfiqləri tərəfindən savaşa qatıldı. Böyük imperiya olan Osmanlı bir neçə cəbhədə döyüşmək məcburiyyətində qaldı. Bu cəbhələrdən biri də şiddətli döyüşlərin getdiyi, müharibənin fəsadlarının bu günə qədər yaşandığı Qafqaz cəbhəsi idi.

Osmanlı dövləti Almaniya ilə aparılan danışıqlarda müharibə qələbə ilə başa çatarsa Qafqazın ona veriləcəyi vədini aldığı üçün və xüsusən də bu diyarın türk-müsəlman əhalisinə arxalandığı üçün əsas gücünü məhz bu cəbhəyə vermişdi. Bundan əlavə Rusiyada yaşayan bütün müsəlmanlara "cihad" çağı-

rışı edərək Qafqazda da “türkçülük” və “turançılıq” ideyalarına əsaslanan siyasət həyata keçirməyə çalışırdı.

Çar Rusiyasının dağılması və Qafqazda bir sıra müstəqil dövlətlərin yaranması ilə Osmanlı dövlətinin bu bölgədəki siyasətində də yeni istiqamətlər ortaya çıxmışdır. Yeni yaranan Qafqaz dövlətləri ilə xoşməramlı qonşuluq siyasəti həyata keçirməyə çalışan Osmanlı dövləti Azərbaycan məsələsinə xüsusi diqqət ayırmışdı.

# *HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN GÜCLƏNMƏSİNDƏ DİPLOMATİYANIN ROLU*

***Dr. Təhminə ƏLİYEVA***

***Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının Tarix, pedaqogika və sosial elmlər kafedrasının baş müəllimi***

***tehmine.eliyeva@quba.adpu.edu.az***

Azərbaycan və Türkiyə arasındakı əlaqələr tarixən ortaq dəyərlər, etnik birlik, mədəni və dil bağlarına əsasən güclü olub. Yüz illik Cümhuriyyət tarixinə sahib, qədim dövlətçilik ənənələri olan Türkiyə Cumhuriyyətinin Ulu Öndəri M.K.Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" şüarı, Azərbaycan Resplikasının Ümummilli lideri H.Əliyevin "bir millət, iki dövlət" şüarı ilə uzlaşır. Azərbaycan 1991-ci ildə öz müstəqilliyini bərpa edəndən sonra 1991-ci il noyabrın 9-da onu tanıyan ilk dövlət məhz Türkiyə oldu. 1992-ci il yanvar ayının 14-də Azərbaycan-Türkiyə diplomatik əlaqələri yaradıldı. Həmin vaxtdan Türkiyənin Azərbaycanda, 1992-ci ilin avqustundan isə Azərbaycanın Türkiyədə diplomatik missiyası fəaliyyətə başlamışdır. Hələ Heydər Əliyevin Naxçıvan MR Ali Sovetinin sədri kimi 1992-ci il 22-25 mart tarixlərində Türkiyədə rəsmi səfərdə olarkən bağlanan müqavilələrlə Naxçıvan MR-nın böhranlı vəziyyətdən çıxmasına göstərilən dəstək əvəzedilməzdir.

Türkiyə Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən Azərbaycana ciddi dəstək verən, Azərbaycanın ərazi bütövlüyünü açıq şəkildə dəstəkləyən, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalını pisləyən ölkələrdən birincisi olub. Türkiyənin Azərbaycana dəstəyi tarixi, mədəni, etnik bağlara,

eləcə də bölgədəki sabitliyin və sülhün qorunmasına əsaslanırdı. Bu dəstək heç şübhəsiz ki, hər iki dövlətin regionda güclü strateji tərəfdaşlığın xarici siyasət konsepsiyasında vacibliyi qəbul etməsindən irəli gəlir.

Ermənistanın işğalçı mövqeyinin Qafqazda yaratdığı təhlükəyə, sülh və sabitliyin pozulmasına qəti etirazını bildirən rəsmi Türkiyə 1993-cü ildə Ermənistanla quru sərhədini bağlamış, ATƏT-in Minsk qrupunun tərkibinə daxil olaraq bu məsələnin sülh yolu ilə həlinə böyük səy göstərmişdir. Türkiyənin beynəlxalq təşkilatlar çərçivəsində dəstəyi beynəlxalq diqqətin münaqişəyə cəlb edilməsində və Azərbaycanın özünü effektiv müdafiə etmək üçün lazım olan resurslarla təmin edilməsində mühüm əhəmiyyət kəsb edirdi.

Hər iki dövlət arasında güclü strateji tərəfdaşlıqların qurulması və saxlanmasında diplomatiyanın inkişafına 7 mart 1997-ci il Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Türkiyə Parlamentlər arası işçi qrupunun böyük əhəmiyyəti olmuşdur.

# *ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏT İLLƏRİNDƏ AZƏRBAYCAN – TÜRKİYƏ MƏDƏNİ ƏLAQƏLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ*

***Dr. Bayram QULİYEV***

***Xəzər Universiteti, Tarix və arxeologiya departamentinin müəllimi***

***bayram.guliyev@khazar.org***

Azərbaycan ilə Türkiyə arasında mədəni əlaqələrinin köklərinin min illərdən daha artıq bir zamana dayanması danılmaz bir gerçəklikdir. Tarix boyu Anadolu və Qafqaz türkləri bir-biri ilə mədəni alış-verişdə bulunmuşlar. Çar Rusiyası, ondan sona Sovetlər Birliyi zamanında tətbiq olunan yasaqlara baxmayaraq, bu iki coğrafiyanı bir-birindən qoparmaq mümkün olmamışdır. Görkəmli siyasi xadim Heydər Əliyev Azərbaycan SSR Kommunist Partiyasının Birinci Katibi vəzifəsinə gələndən sonra yasaqlara rəğmən ilkin addımlar atılmışdır. Türkiyə ilə Azərbaycan arasında illər sonra yaradılan ilk əlaqələr mədəni xarakter daşıyır. Azərbaycan sənətçilərinin Türkiyədə, Türkiyə sənətçilərinin Azərbaycanda konsert verdiklərini müşahidə edə bilirik.

Azərbaycan öz müstəqilliyini qazanandan sonra bu proses həm genişlənmiş, həm də dərinləşmişdir. 1993-cü il Azərbaycan xalqının çoxsaylı tələbləri əsasında Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyevin zamanında bu əlaqələr ən yüksək səviyyədə inkişaf etdirildi. O, Türkiyə respublikası ilə sadəcə mədəni yöndən deyil, bütün yönlərdə əlaqələrin gerçəkləşməsini hakimiyyətinin ilk illərindən siyasətinin əsas prioritetlərindən birinə çevirdi.

Azərbaycan – Türkiyə mədəni əlaqələrini çeşidli yönlərdə

inkişaf etmişdir, lakin onları aşağıdakı kimi təsnif etmək mümkündür: 1. Elm və təhsil sahəsində əlaqələr; 2. Türkoloji və ədəbiyyat sahəsində əlaqələr; 3. İncəsənət və memarlıq sahəsində əlaqələr.

Azərbaycan və Türkiyə respublikaları arasında elm və təhsil yönündə əlaqələr 90-cı illərin əvvəllərindən - 9 noyabr 1991-ci ildə Türkiyə Cümhuriyyəti Azərbaycanın müstəqilliyini tanıdıqdan sonra başladı. Heydər Əliyevin 1992-ci ilin martında Türkiyə Respublikasına səfəri Türkiyə - Azərbaycan Respublikaları arasında hərtərəfli əməkdaşlığın genişlənməsi üçün zəmin yaratdı. 1992-ci ildə postsovet məkanında ilk dəfə olaraq və Türkiyə təcrübəsinə əsaslanaraq test əsasında universitetlərə qəbul imtahanı keçirildi. 2 noyabr 1992-ci il tarixində Türkiyə Cümhuriyyəti hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında mütəxəssis hazırlığına dair protokol da Azərbaycan - Türkiyə mədəni əlaqələrinin inkişafına təkan vermiş, Azərbaycandan bir çox tələbələr Türkiyə Universitetlərində təhsil almağa göndərilmişdir.

Azərbaycan - Türkiyə elmi-mədəni əlaqələri sahəsində Heydər Əliyevin prezident seçildiyi ilk günlərdən ciddi addımların atıldığını gözləmləmək mümkündür. 26 oktyabr 1993-cü ildə Bakıda keçirilən və Türkiyə Cümhuriyyətinin yaradılmasının 70 illiyinə həsr olunan elmi-praktiki konfransa ünvanlanan məktubunda cənab Heydər Əliyev hər iki ölkə arasında dərin köklərin olduğunu yazaraq vurğulayırdı ki, bu bağlar hərtərəfli əlaqələrin inkişaf etdirilməsini təmin etməlidir.

Heç şübhəsiz ki, bu da öz bəhrəsini vermiş, Türkiyə elmi və texniki araşdırma qurumu (TÜBİTAK) ilə Azərbaycan Elmlər Akademiyası elmi və texniki əməkdaşlığı baş tutmuşdur. İki

ölkənin bu elmi qurumları arasında olan razılaşmaya əsasən tərəflər bir sıra məsələlərdə qarşılıqlı fəaliyyətə başlamağın zamanı yetişdiyini yekdilliklə təsdiqləmişdilər. 9 fevral 1994-cü il Ümummilli liderimizin Türkiyəyə rəsmi səfəri çərçivəsində Türkiyə - Azərbaycan əlaqələri arasında çoxyönlü müqavilələr imzalanmışdır ki, bunların içərisində mədəni əlaqələrə yönəlik məqamlar da yer alırdı.

Türkiyə - Azərbaycan mədəni əlaqələrinin genişləndirilməsi və səmərəliliyinin artırılmasına Türk dövlət başçılarının Zirvə toplantıları da öz təsiri göstərmişdir. İlk toplantı 1992-ci il oktyabr ayının 30-31-də Ankarada, ikinci toplantı 1994-cü il oktyabr ayının 19-da İstanbulda, üçüncü toplantı 1995-ci il avqust ayının 28-də Bişkekdə, dördüncü toplantı 1996-cı il oktyabr ayının 21-22-də Daşkənddə, beşinci toplantı 1998-ci il iyunun 9-da Astanada, altıncı toplantı 2000- ci il aprel ayının 8-də Bakıda, yeddinci toplantı 2001-ci ilin aprel ayının 26-27-də İstanbulda keçirilmişdir. 2002-ci ildə Aşqabadda keçirilmiş VIII Zirvə görüşündə dövlət başçıları 19 maddədən ibarət bəyannamə imzalamışlar. Örnək olaraq göstərsək, 1995-ci il avqust ayının 27-28-də türk dövlət başçılarının III Zirvə toplantısı Türk dünyasının böyük əsəri "Manas" dastanın 1000 illiyinə, 2000-ci il aprel ayının 8-də Bakıda keçirilən toplantı ilə ulu kitabımız "Kitabi-Dədəm Qorqud" abidəsinin 1300 illiyinə təsadüf edirdi.

Sadəcə Türkiyə-Azərbaycan arasında deyil, eləcə də bütün Türk dünyası arasında mədəni əlaqələrin genişlənməsi və inkişaf etdirilməsi 1993-cü ildə Türkiyə, Azərbaycan, Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstanın birgə yaratdıqları TÜRKSOY-un rolu danılmazdır. Örnək olaraq göstərsək 1994-cü il görkəmli Türk şairi Məhəmməd Füzulinin 600 illiyi

təntənəli şəkildə qeyd olunmuş və Azərbaycan Prezidenti bu tədbirlərdə iştirak etmişdir. Bu qurumun ortaq əlifba və ortaq dilin formalaşdırılmasının əsas prinsiplərini müəyyən etməkdə rolu olduqca böyükdür. Bu qurumun səyi nəticəsində Türk dövlətləri teatrlarının birgə əməkdaşlıqları baş tutmuş və Türk dövlətlərinin səhnələrində çeşidli tamaşalar göstərilmişdir.

Azərbaycan və Türkiyə Respublikaları arasında elmi-mədəni əlaqələrin daha da genişlənməsində Ulu Öndər Heydər Əliyevin 9 mart 2001-ci il sərəncamına əsasən yaradılan "Atatürk Mərkəzinin rolu olduqca böyükdür. Mərkəzin ən önəmli ilk tədbiri Azərbaycan – Türkiyə əlaqələrinin yaranmasının 10 illiyinə həsr olunmuşdur. "Atatürk Mərkəzi"nin bu kimi önəmli addımları indiyə qədər davam etməkdədir.

Ümummilli Liderimiz cənab Heydər Əliyevin sayəsində formalaşdırılan Türkiyə - Azərbaycan mədəni əlaqələri Prezident İlham Əliyevin dövründə də uğurlu bir şəkildə davam etdirilir və yeni bir inkişaf mərhələsinə keçilməkdədir.

## *ULU ÖNDƏR HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ QARDAŞ TÜRKİYƏ ƏMƏKDAŞLIĞI*

***Dr. Novruz Kərimov***

***Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının Tarix, pedaqogika və sosial elmlər kafedrasının baş müəllimi***

***novruz.kerimov@quba.adpu.edu.az***

İnsanın dünyaya gəlişi, vaxtı – vədəsi yetişəndə həyatını başa vurub haqqa qovuşması təbii qanunauyğunluqdur. Hər birimiz ömrün əvvəlindən sonunadək bu həqiqətin əhatəsində yaşayırıq. Amma şəxsin qısaca bir ömürdə əsrlərə sığmayan möhtəşəm tarix yaradıb, əməlləri ilə zamanın da, məkanın da fövqünə ucalması artıq qanunauyğunluq işi deyil. Bu qismət yalnız nadir şəxsiyyətlərə və onların timsalında ümumən həmin şəxsiyyətləri yetirmiş xalqlara nəsib olur. Azərbaycanın təbii sərvətlərinin zənginliyinə, yerləşdiyi təbii coğrafi mövqeyinə görə böyük dövlətlərin həmişə marağında olmuş və müxtəlif dövrlərdə işğallara məruz qalmış, müəyyən vaxtlarda döyüş meydanına çevrilmiş, lakin bir xalq olaraq heç vaxt uzun müddət itaət altında qalmamışdı. Özünün ağıllı, uzaqgörən siyasətçiləri və sərkərdələrinin rəhbərliyi altında daim azadlıq hərəkatına qoşulmuş, bu və ya digər formada öz azadlığı və müstəqilliyinə nail ola bilmişdir. Türkiyənin lideri Mustafa Kamal Paşa belə bir fikir söyləmişdir: "Xalqa əfəndilik etmək yoxdur, xalqa xidmət etmək vardır. Kim xalqa xidmət edə bilirsə, o, xalqa əfəndilik edə bilir." 1991-ci il 18 oktyabrda 2-ci dəfə öz müstəqilliyini elan etmiş Azərbaycan Respublikasını ilk tanıyan dövlət Türkiyə olmuşdur(9 noyabr 1991-ci il). Azərbaycan – Türkiyə iqtisadi əlaqələri ölkəmizin müstəqilliyinin ilk illərindən etibarən inkişaf etməyə başlamışdır. Bu istiqa-

mətdə ilkin olaraq 1 noyabr 1992-ci il tarixində Azərbaycan və Türkiyə arasında Ankarada "Ticarət və İqtisadi Əməkdaşlıq haqqında Saziş" imzalamış, 23 yanvar 1993-cü il tarixindən qüvvəyə minmişdir. Bu gün Azərbaycan və Türkiyə arasında müxtəlif sahələr üzrə təsis edilmiş bir sıra birgə mexanizmlər fəaliyyət göstərməkdədir. Bunlardan xüsusilə, Azərbaycan–Türkiyə Hökumətlər arası Müştərək İqtisadi Komissiya, Kənd Təsərrüfatı İcra Komitəsi, Quru Nəqliyyatı Birgə Komissiyası, Gömrük Məsələləri üzrə Birgə Komitə kimi mexanizmləri göstərmək olar. Ulu öndərimizin təbirincə desək, bir millət, iki dövlətin qardaşlığı , dostluğu əbədi olsun! Heydər Əliyev deyirdi: "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır."